*Xuraman*

***Xocalı hey...***

16 ildir Xocalı adlı qanı qurumayan bir yara sinəmi dağım-dağım dağlayır. 16 ildir Xocalı həsrətli bir qəm çeşməsi gözlərimdə çağım-çağım çağlayır. 16 ildir sinəsi düşmən süngüsündən dağılmış, körpə ömrü paralanmış fıdan balaların fəryadı qəlbimi göyür-göyür göynədir. 16 ildir girov qalmış qızın, gəlin tapdalanmış namusu vicdanımı inim-inim inlədir. 16 ildir ulu babalarımm, nənələrimin narahat, nigaran, şəhid ruhları ağlımı başımdan alıb. 16 ildir əsrlər yaşamış kimi düşgün, yorğun xəyalım Qarabağm dağlada, meşələrində sürüm-sürüm sürünür, dincəlməyə, ovunmağa məkan axtarır. Yağı tapdağmdan, düşmən nəfəsindən tıncıxan, göynəyən Qarabağım özü gələ bilməyən övladlarının xəyalını qəbul eləmir.

16 ildir "Xocalı hey!.."- deyirik. Səsimiz içimizdə boğulur, qulaqlarımızda batır. 16 ildir hamıdan güclü bildiyim, hər şeydən çox sevdiyim millətim gözümdə kiçilib. Qeyrətinə, hünərinə güvəndiyim kişilər gözümdən düşüb. Şəhid analarının üzünə baxmağa üzüm utanır. İllərdir yuxularımda Qarabağım od tutub yanır, ha çırpınıram, çabalayıram kömək edə bilmirəm, bu gücsüzlüyümdən hönkür-hönkür ağlayıram, ağlayıram...

İllərdir əllərimi Haqqın dərgahına açıb haqq diləyirəm, ədalət gözləyirəm. Haqq çağıran səsim Haqqın dərgaına çatacaqmı?!

Tanrıdan kəsmədiyim ümidimin göyərəcəyinə inana-inana gözləyirəm. Qələbə günündə sevinəcəyimə inana-inana yaşayıram.

***Xuraman. Xocalı hey... : mənsur şeir // Anasız qalan dünyam. - Bakı : Nərgiz, 2008. - S.79-80.***